

# Güneydən səslər...

"Türk dünyasında gənc nəslin yaşadıqları ölkələrdə məktəblərdə öz ana dilində təhsil almaq imkanı olmalıdır". Bunu Azərbaycan Prezidenti İlham Əliyev ötən il noyabrın 11-də Səmərqənddə keçirilən Türk Dövlətləri Təşkilatının IX Zirvə görüşündəki çıxışında bəyan edib.

Dövlət başçısının bu fikri yaddaşımızı bir qədər təzələmək üçün sanki bir təkan oldu. Azərbaycanlıların daha kompakt yaşadığı Güney Azərbaycanını göz önünə gətirdik. Quzeydə hələ də yetərincə tanınmayan Güney barədə düşüncələrimizin fonunda onun ədəbiyyatını, nəsrini, poeziyasını, yazar soydaşlarımızın mücadiləsini ifadə edən nümunələri xatırladıq.

Qəzetimizdə "Güneydən səslər..." rubrikası altında Güney ədəbiyyatının, folklorunun, mədəniyyətinin, incəsənətinin ən gözəl nümunələri ilə oxucularımızı da tanış edirik.

## NASİR ŞAHBAZİ (AŞIQOĞLU)



Nasir Şahbazi ünlü aşıq Əhməd Şahbazinin oğludur.

1990-cı il avqustun 31-də Güney Azərbaycanın Ucan (Bostanabad) bölgəsinin Gülaxar kəndində doğulub.

1996-1997-ci illərdə atası Əhməd Şahbazi Qəzvin şəhərində ana dilini qoruyub saxlamaq məqsədilə qəhvəxana açır. İranın bütün şəhərlərindən aşıqlar gəlib burada oxuyar, şöhrət qazanardılar. Nasir Şahbazi uşaqlıqdan bu məclislərdə iştirak edirdi. Ona görə də bütün aşıqları tanıyırdı. Şeir və musiqiyə də maraq həmin zamanlarda yaranmışdır.

Nasirin Azərbaycanın bir sıra yerlərinin, şəhər, kənd, dağ və çay adlarının çevrilərək özgə dildə yazılmasına qarşı yazdığı kəskin etiraz ruhlu bir şeir böyük maraqla qarşılanıb və ölkənin bütün saytlarında yerləşdirilib... Həmin şeir şairin şah əsərlərindən biri sayılır.

### Vətən

İgidlər yurdusan, qeyrət yurdusan,
Elmin varlığı, canısan vətən!
Səndən min il getsəm yorulmaram mən
Dilimin şöhrəti, şanısan, vətən!

Vətən xainini yoldaş bilmərəm
Özün satanları dildaş bilmərəm
Əslini atanı qardaş bilmərəm
Sən mənə şərafət yolusan, vətən!

Qəflət yuxusunda yatmamışam mən,
Haqqı batillərə satmamışam mən,
Türkəm öz əslimi atmamışam mən,
Qeyrətin damarı, qanısan vətən!

Sənsiz qalmaz bədəndə canım,
Güvənəm yolunda tökülsə qanım,
Müqəddəs torpaqsan Azərbaycanım,
Cənnətin seçilmiş bağısan, vətən!

## ALMA MUĞANLI



1990-cı ildə Tehranda muğanlı ailəsində doğulub. İlk və orta təhsilini Tehranda alıb. Ali təhsilini Tehran Universitetində nüvə fizikası ixtisası üzrə davam etdirib.

Şeirləri "Yarpaq" qəzeti, "Yaşmaq" və "Dilmanc" jurnallarında dərc olunub. 2007-ci ildə "Bıçaqlanmış heyva" adlı şeir toplusu çapdan çıxıb.

Mən səni tanıdım və şair oldum
Mənim ürəyim genişdi və sənin gözlərin
sən beynindən dabanına qədər şeir qoxuyurdun
dırnaqların yerinə sözcüklər göyərirdi
gözlərindən damlayan yazılmamış şeirlərimdi
sən yaratdın bütün şeirlərimi
və mən hər şeirimdə yaratdım səni
Tanrı qısqandı məni,
və səni,
və qadınlığımı,
və şairliyimi!!

Esmira Fuad